| | |
|---|---|
| Aktın növü: | *Mərkəzi icra hakimiyyəti orqanlarının qərarları* |
| Qəbul edildiyi tarix: | *30.11.2012* |
| Qeydiyyat nömrəsi: | *Q65-001-12* |
| Adı: | *«Sürücülük vəsiqəsinin verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament»in təsdiq edilməsi barədə* |
| Rəsmi dərc edildiyi mənbə: | |
| Qüvvəyə minmə tarixi: | *12.12.2012* |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu: | *370.050.000* |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi: | *15201211300065* |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix: | *11.12.2012* |

«Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-1-ci hissəsinin icrasının təmin edilməsi məqsədilə,

**KOLLEGİYA QƏRARA ALIR:**

1. «Sürücülük vəsiqəsinin verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament» təsdiq edilsin (əlavə olunur).
2. Qərar qəbul edildiyi gündən 3 gün müddətində «Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestri»nə daxil edilməsi üçün Ədliyyə Nazirliyinə göndərilsin.
3. Qərar respublika daxili işlər orqanlarında elan edilsin.

**Kollegiyanın Sədri**
**general-polkovnik** **Ramil Usubov**

Azərbaycan Respublikası
Daxili İşlər Nazirliyinin 2012-ci il "30"
noyabr tarixli "Q65-001-12" nömrəli
qərarı ilə təsdiq edilmişdir

Nazir : Ramil Usubov

## Sürücülük vəsiqəsinin verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament

### 1. Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı:** sürücülük vəsiqəsinin verilməsi üçün müraciətin və sənədlərin qəbulu.

**1.2. Elektron xidmətin məzmunu:** bu xidmət yol hərəkəti qaydaları üzrə nəzəri və nəqliyyat vasitələrini idarəetmə vərdişləri üzrə təcrübi imtahanın, sürücülük vəsiqəsinin verilməsi və dəyişdirilməsi üçün müraciətin və sənədlərin qəbulu qaydalarını müəyyən edir.

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:**

**1.3.1.** "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 35-ci maddəsi;

**1.3.2.** "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-1-ci hissəsi;

**1.3.3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın 2.6-cı bəndi;

**1.3.4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15.03.1999-cu il tarixli 41 nömrəli Qərarı ilə təsdiq edilmiş "Nəqliyyat vasitəsini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi və onlara sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında Əsasnamə".

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:** Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi (bundan sonra –DİN BDYPİ).

**1.5. Elektron xidmətin digər icraçıları:** yoxdur.

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** qismən.

**1.7. Elektron xidmətin icra müddəti:**

**1.7.1.** sürücülük vəsiqəsinin verilməsi və dəyişdirilməsi üçün bir iş günü ərzində;

**1.7.2.** yol hərəkəti qaydaları üzrə nəzəri və nəqliyyat vasitələrini idarəetmə vərdişləri üzrə təcrübi imtahanın verilməsi üçün – üç gün müddətində.

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:** DİN BDYPİ-nin ərazi üzrə müvafiq qeydiyyat-imtahan və texniki baxış şöbəsi tərəfindən şəxsə sürücülük vəsiqəsinin verilməsi.

**2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi**

**2.1. Elektron xidmətin növü:** interaktiv;

**2.2. Elektron xidmət üzrə ödəniş:** ödənişli;

**2.2.1. xidmət üzrə ödənişin əsası:**

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 35-ci maddəsinin birinci hissəsinin 3-cü bəndi, ikinci hissəsinin 4-cü bəndi və səkkizinci hissəsi;

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun 18.65.4.1-ci maddəsinə əsasən sürücülük vəsiqəsinin verilməsi üçün imtahanın qəbuluna görə 20 manat məbləğində, 18.65.5-ci maddəsinə əsasən isə sürücülük vəsiqəsinin verilməsinə və ya dəyişdirilməsinə görə 15 manat məbləğində dövlət rüsumu ödənilir.

DIN BDYPI-nin **bank rekvizitləri:**
Baş Dövlət Yol Polisi İdarəsi VÖEN 9900063851
1 saylı Xəzinədarlıq İdarəsi
VÖEN: 1700986181
ABB Mərkəzi filialı
VÖEN 9900001881
kod: 805722
m/h 0137010002944
S.W.İ.F.T Bik: İBAZAZ2X
H/h 33205019449328518204

**ödəmə üsulları:** bank, poçt, plastik kart və ya internet vasitəsi ilə.

**2.3. Elektron xidmətin istifadəçiləri:** fiziki şəxslər.

**2.4. Elektron xidmətin təqdim olunma yeri:** http://mia.gov.az/?/az/content/29772/

**2.5. Elektron xidmət barədə məlumatlandırma:**

- http://mia.gov.az/?/az/content/29772/
- e-poçt: info@mia.gov.az, info@dyp.gov.az
- telefon: +994 12 590-81-25, +994 12 590-81-35

**2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:**

**2.6.1.** sürücülük vəsiqəsinin verilməsi üçün istifadəçi tərəfindən ərizəyə (Əlavə №1) aşağıdakılar əlavə olunur:

**1)** Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin, (müvafiq olaraq Azərbaycan Respublikasının ərazisində əcnəbinin qeydiyyata alınması haqqında vəsiqənin və ya Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsinin) nömrəsi və verilmə tarixi;

**2)** aşağıdakı sənədlərin skan edilmiş surəti:

- müstəqil hazırlıq keçən şəxslər istisna olmaqla, digər şəxslər üçün müvafiq kateqoriyalı nəqliyyat vasitələri sürücülərinin hazırlanması üzrə tədris planlarında və proqramlarında nəzərdə tutulan həcmdə hazırlıq keçmələri barədə təhsil müəssisəsinin

sənədi (şəhadətnamə, diplomun surəti, semestr-imtahan cədvəllərindən çıxarış və ya diploma əlavə);

- Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təsdiq olunmuş formada tibbi arayış;

- sürücülük vəsiqəsinin verilməsi üçün imtahanların qəbuluna görə dövlət rüsumunun ödənilməsi barədə *bank və ya poçt qəbzinin əsli, elektron ödəmə sistemləri, o cümlədən internet vasitəsilə ödənildikdə müvafiq ödəmə sistemindən çıxarış, ödəyicinin hesabından köçürüldükdə isə ödənişin icrasını təsdiqləyən bank və ya poçt sənədi*);

**-** "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 33-cü maddəsinin ikinci hissəsində əks olunan müvafiq kateqoriyalar üzrə müəyyən edilmiş idarəetmə təcrübəsini təsdiq edən sənəd.

**2.6.2.** sürücülük vəsiqəsinin dəyişdirilməsi üçün istifadəçi tərəfindən ərizəyə (Əlavə №2) aşağıdakılar əlavə olunur:

**1)** dəyişdirilməsi tələb olunan sürücülük vəsiqəsinin nömrəsi və verilmə tarixi;

2) aşağıdakı sənədlərin skan edilmiş surəti:

- Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təsdiq olunmuş formada tibbi arayış;

- sürücülük vəsiqəsinin dəyişdirilməsi üçün dövlət rüsumunun ödənilməsi barədə *bank və ya poçt qəbzinin əsli, elektron ödəmə sistemləri, o cümlədən internet vasitəsilə ödənildikdə müvafiq ödəmə sistemindən çıxarış, ödəyicinin hesabından köçürüldükdə isə ödənişin icrasını təsdiqləyən bank və ya poçt sənədi.*

**3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar**

**3.1.** Sürücülük vəsiqəsinin verilməsi və dəyişdirilməsi üzrə elektron xidmətlər istifadəçilər üçün daim açıqdır və müraciət edilməsi hər hansı qaydada məhdudlaşdırıla bilməz.

**3.2. İnteaktiv elektron xidmət üçün sorğu:**

**3.2.1. sorğunun formalaşdırılması:** DİN BDYPİ-nin internet informasiya ehtiyatının elektron xidmət bölməsində istifadəçi tərəfindən sürücülük vəsiqəsinin verilməsi və ya dəyişdirilməsi üçün ərizə formasını elektron xidmətin təqdim edildiyi internet ünvanından yükləyərək doldurulur və bu reqlamentin 2.6-cı bəndində göstərilənlərlə birlikdə həmin elektron ünvana təqdim edilir;

**3.2.2. sorğunun qəbulu:** sorğu internet səhifəsinə daxil olduğu gün qeydiyyata alınır və sorğunun qəbul edilməsi ilə bağlı istifadəçinin elektron poçtuna dərhal bildiriş göndərilir.

**3.3. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**

**3.3.1. sorğunun yerinə yetirilməsindən imtina halları:** istifadəçi tərəfindən sürücülük vəsiqəsinin verilməsi və ya dəyişdirilməsi üçün göndərilən sənədlərdə çatışmazlıqlar (ərizə formasının tam doldurulmaması, bu reqlamentin 2.6-cı bəndində göstərilənlərdən birinin və ya bir neçəsinin ərizəyə əlavə olunmaması) aşkar edildikdə, sorğunun yerinə yetirilməsindən imtina edilir və imtinanın səbəbləri barədə ərizəçinin elektron poçtuna dərhal məlumat göndərilir.

Elektron xidmətin göstərilməsindən imtina istifadəçinin sürücülük vəsiqəsinin verilməsi və ya dəyişdirilməsi ilə əlaqədar DİN BDYPİ-nin elektron xidmət bölməsinə yenidən müraciət etməsinə mane olmur;

**3.3.2. sorğunun qəbulu:** istifadəçi tərəfindən təqdim edilmiş sənədlər bu reqlamentin 2.6-cı bəndində göstərilənlərə uyğun olduqda sorğu qəbul olunur.

**3.4. Sorğunun icrası:**

**3.4.1. ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat:**

1. sürücülük vəsiqəsinin verilməsi ilə bağlı istifadəçi tərəfindən verilən sorğu qəbul edildikdən sonra Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"a uyğun olaraq dərhal qeydiyyata alınır və baxılması üçün DİN BDYPİ-nin ərazi üzrə müvafiq regional qeydiyyat-imtahan və texniki baxış şöbəsinə elektron formada (internet vasitəsi ilə) ünvanlanır;

2. sürücülük vəsiqəsinin dəyişdirilməsi ilə bağlı istifadəçi tərəfindən verilən sorğu qəbul edildikdən sonra yuxarıda göstərilən Təlimata uyğun olaraq dərhal qeydiyyata alınır və baxılması üçün DİN BDYPİ-nin ərazi üzrə müvafiq regional qeydiyyat-imtahan və texniki baxış şöbəsinə elektron formada (internet vasitəsi ilə) ünvanlanır;

Sorğunun icrası üzrə DİN BDYPİ-nin ərazi üzrə müvafiq regional qeydiyyat-imtahan və texniki baxış şöbəsinin rəhbəri bilavasitə məsuliyyət daşıyır;

**3.4.2. hər bir inzibati əməliyyatın məzmunu, yerinə yetirilmə müddəti və/və ya maksimal yerinə yetirilmə müddəti:**

1. sürücülük vəsiqəsinin verilməsi ilə bağlı sənədlərə DİN BDYPİ-nin müvafiq regional qeydiyyat-imtahan və texniki baxış şöbəsində baxıldığı zaman aradan qaldırılması mümkün olan və imtina üçün əsas olmayan çatışmazlıqlar aşkar edildikdə, onların 5 iş günü müddətində aradan qaldırılması barədə istifadəçiyə elektron poçtla dərhal bildiriş göndərilir.

İstifadəçi tərəfindən göndərilən sənədlərdə çatışmazlıqlar aşkar edilmədikdə və ya aşkar edilmiş çatışmazlıqlar aradan qaldırıldıqdan sonra sorğuya baxılması davam edir və DİN BDYPİ-nin müvafiq regional qeydiyyat-imtahan və texniki baxış şöbəsi sürücülük vəsiqəsinin verilməsi üçün şəxsə yol hərəkəti qaydaları üzrə nəzəri və nəqliyyat vasitələrini idarəetmə vərdişləri üzrə təcrübi imtahanların qəbulunun tarixi, vaxtı və yeri barədə onun elektron poçt ünvanına dərhal məlumat göndərir.

2. sürücülük vəsiqəsinin dəyişdirilməsi ilə bağlı sənədlərə DİN BDYPİ-nin müvafiq regional qeydiyyat-imtahan və texniki baxış şöbəsində baxıldığı zaman aradan qaldırılması mümkün olan və imtina üçün əsas olmayan çatışmazlıqlar aşkar edildikdə, onların 5 iş günü müddətində aradan qaldırılması barədə istifadəçiyə elektron poçtla dərhal bildiriş göndərilir.

İstifadəçi tərəfindən göndərilən sənədlərdə çatışmazlıqlar aşkar edilmədikdə və ya aşkar edilmiş çatışmazlıqlar aradan qaldırıldıqdan sonra sorğuya baxılması davam edir və DİN BDYPİ-nin müvafiq regional qeydiyyat-imtahan və texniki baxış şöbəsi sürücülük vəsiqəsinin dəyişdirilməsi tarixi, vaxtı və yeri barədə onun elektron poçt ünvanına dərhal məlumat göndərir;

**3.4.3. inzibati əməliyyatda iştirak edən digər dövlət orqanı haqqında məlumat:** yoxdur;

**3.4.4. inzibati prosedurun nəticəsi və onun verilməsi qaydası:** DİN BDYPİ-nin müvafiq regional qeydiyyat-imtahan və texniki baxış şöbəsində şəxs yol hərəkəti qaydaları üzrə nəzəri və nəqliyyat vasitələrini idarəetmə vərdişləri üzrə təcrübi imtahanları müvəffəqiyyətlə verdikdə sürücülük vəsiqəsi rəsmiləşdirilərək onun sahibinə şəxsən təqdim edilir. Bu halda imtahanları müvəffəqiyyətlə verən şəxs sürücülük vəsiqəsinin verilməsinə görə dövlət rüsumunun ödənilməsi barədə *bank və ya poçt qəbzinin əsli, elektron ödəmə sistemləri, o cümlədən internet vasitəsilə ödənildikdə müvafiq ödəmə sistemindən çıxarış, ödəyicinin hesabından köçürüldükdə isə ödənişin icrasını təsdiqləyən bank və ya poçt sənədi* təqdim edir;

Sürücülük vəsiqəsinin dəyişdirilməsi tələb olunan halda şəxsə yeni sürücülük vəsiqəsi rəsmiləşdirilərək şəxsən təqdim edilir. Bu halda dəyişdirilməsi tələb olunan sürücülük vəsiqəsi DİN BDYPİ-nin müvafiq regional qeydiyyat-imtahan və texniki baxış şöbəsinə təhvil verilir.

**3.5. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:** elektron xidmətin yerinə yetirilməsinə nəzarəti DİN BDYPİ həyata keçirir.

**3.5.1. nəzarət forması:** kargüzarlıq;

Daxil olmuş müraciətlərin avtomatlaşdırılmış rejimdə mütəmadi monitorinqi.

**3.5.2. nəzarət qaydası:** Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat»la müəyyən edilmiş qaydada.

**3.6. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:**

**3.6.1. istifadəçinin şikayət etmək hüququ haqqında məlumat:** yaranan mübahisələrlə bağlı istifadəçi ona elektron xidməti göstərmiş DİN BDYPİ-nin müvafiq regional qeydiyyat-imtahan və texniki baxış şöbəsinin rəhbərinin tabe olduğu yuxarı orqana inzibati qaydada və (və ya) məhkəməyə şikayət etmək hüququna malikdir;

**3.6.2. şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya:** şikayət ərizəsi "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinə uyğun olmalıdır;

**3.6.3. şikayətə baxılma müddəti:** şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 78-ci maddəsindəmüəyyən olunmuş müddətdə baxılır.

“Sürücülük vəsiqəsinin verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament”ə (Əlavə №1)

DİN BDYPİ-nə ________________________________

___________________________________tərəfindən
(soyadı, adı, atasının adı)

Əlaqə vasitələri:
Telefon, faks nömrələri:
elektron poçt ünvanı:
şəxsiyyət vəsiqəsinin seriyası _______№-si___________________
verilib_______________________________________________
(nə vaxt və kim tərəfindən)

**Ə R İ Z Ə**

______________kateqoriyaya aid nəqliyyat vasitəsini idarəetmə hüququ verən sürücülük vəsiqəsinin verilməsini xahiş edirəm.

_________________ (ərizəçinin imzası) « ____ » ____________ 20 ___

"Sürücülük vəsiqəsinin verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"ə (Əlavə №2)

DİN BDYPİ-nə_____________________________

___________________________________tərəfindən
(soyadı, adı, atasının adı)

Əlaqə vasitələri:
Telefon, faks nömrələri:
elektron poçt ünvanı:
şəxsiyyət vəsiqəsinin seriyası _________ №-si_____________________
verilib_________________________________________________
(nə vaxt və kim tərəfindən)

**Ə R İ Z Ə**

Sürücülük vəsiqəsinin ___________________ dəyişdirilməsini xahiş edirəm.
(səbəb göstərilir)

_________________ (ərizəçinin imzası) « ____ » ____________ 20 ___

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

1. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Kollegiyasının 03 aprel 2013-cü il tarixli **Q10-001-13** nömrəli Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi **15201304030010**, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 15 aprel 2013-cü il)